Demokratik Təşəbbüslər İnstitutu

IDI

Institute for Democratic Initiatives

2019

# İnzibati həbslərlə bağlı qanunvericiliyin analizi və pis rəftarın vəziyyətinə dair ARAŞDIRMA SƏNƏDİ

**Mündəricat**

Xülasə ........................................ 2
Giriş ........................................ 2
Metodologiya ........................................ 3
1. Yerli qanunvericiliyin analizi ........................................ 3
1.1 Azərbaycan Respublikasının Konstitusiyası ........................................ 3
1.2 İnzibati Xətalar Məcəlləsi ........................................ 3
2. İşgəncələri qadağan edən qanunvericilik ........................................ 6
3. İnzibati həbslər və pis rəftarla bağlı Beynəlxalq qanunvericilik və standartların analizi ...... 6
3.1 Beynəlxalq sənədlər ........................................ 7
3.2 BMT və Avropa standartları ........................................ 8
4. Beynəlxalq hesabatlarda inzibati həbs və pis rəftarın təhlili ........................................ 8
4.1 Beynəlxalq hesabatlar ........................................ 8
4.2 BMT-nin İşgəncələr əleyhinə Alt-komitəsinin hesabatları ........................................ 10
4.3 Avropa Məhkəməsinin qərarları ........................................ 10
5. İnzibati həbslərin statistikası ........................................ 11
5.1 2011-2018-ci illər arasında inzibati həbslər ........................................ 11
5.2 2018-ci ildə siyasi motivli inzibati həbslər ........................................ 11
6. 2018-ci ildə inzibati həbslərdə pis rəftar və saxlanma yerlərinin vəziyyəti ........................................ 15
6.1 Pis rəftar ........................................ 15
6.2 Saxlanma yerlərinin vəziyyəti ........................................ 16
Nəticə və tövsiyyələr ........................................ 17
2018-ci ildə siyasi motivlərlə inzibati həbslərə məruz qalanların siyahısı ........................................ 19
Qısaltmalar ........................................ 29

# Xülasə

Bu araşdırma Demokratik Təşəbbüslərin İnstitunun könüllüləri tərəfindən təşkilatın mövqeyini ifadə etmək üçün hazırlanıb. Sənəd inzibati həbslərə məruz qalmış şəxslərdən alınmış müsahibələrə, mediadan toplanmış, analiz edilmiş, doğruluğu faktlarla isbat edilmiş məlumatlara əsasən hazırlanıb. Sənədin məqsədi siyasi motivli inzibati həbslər nəticəsində meydana gələn hüquq pozuntularına diqqət çəkilməsi, həbslərin gerçək səbəblərinin göstərilməsi və bu cür halların qarşısının alınması üçün tövsiyələrin irəli sürülməsidir. Xüsusi metodologiya və müxtəlif monitorinq üsulları ilə hazırlanmış hesabat aşağıdakıları əhatə edir:
Sənədin giriş hissəsində ölkədə inzibati həbslərlə bağlı ümumi vəziyyət və inzibati həbsin anlayışı haqqında qısa məlumat verilir.
Sonrakı hissədə qanunvericiliyin analizi aparılıb. Bu hissədə həm inzibati xətalarla bağlı, həm də işgəncələrlə bağlı yerli qanunvericilik analiz edilib və Azərbaycan Respublikasının tərəfdar çıxdığı Beynəlxalq sənədlərlə müqayisə aparılıb, eləcə də BMT və Avropa standartları analiz edilib.
Növbəti hissədə beynəlxalq təşkilatların hesabatlarının monitorinqi aparılıb, onların tövsiyələrinin analizi verilib. Daha sonra isə 2011-2018-ci illər üzrə inzibati həbslərin ümumi statistikası, eləcə də 2018-ci ildə baş vermiş siyasi motivli inzibati həbslərin müxtəlif formalarda statistik analizi aparılıb. Bu zaman Dövlət Statistika Komitəsinə 2018-ci ildəki inzibati həbslərin sayı ilə bağlı sorğu göndərilib və cavab alınıb. Analiz nəticəsində müəyyən olunub ki, 2011-2018-ci illər ərzində inzibati həbslərin sayı 3299 nəfərdən 8449 nəfərə çatmış, yəni iki dəfədən də çox artmışdır. 2018-ci ildəki 8449 həbsin 78-i siyasi motivli olub.
Son olaraq siyasi motivli inzibati həbsə məruz qalmış 15 şəxsdən aldığımız müsahibələr əsasında inzibati həbslərdə pis rəftar və saxlanma yerlərinin vəziyyəti ilə bağlı analiz aparılıb. Analiz nəticəsində müəyyən olunub ki, şəxslər daha çox polisdə olarkən pis rəftara məruz qalıblar, saxlanma yerlərində isə daha çox sözlü təzyiqlərə məruz qalıblar. Saxlanma yerlərində qidalar az miqdarda verilib və sanitariya qaydalarına əməl olunmayıb.
Hesabatın sonunda monitorinq üzrə yekun nəticələr və tövsiyələr verilib. Tövsiyələr praktikada olan qüsurların aradan qaldırılmasına yönəlib.

# Giriş

İnsan Hüquqları üzrə Ümumi Bəyannamə, Mülki və Siyasi Hüquqlar üzrə Pakt özbaşına həbsi və pis rəftarı qadağan etsə də, Azərbaycanda inzibati həbslər geniş yayılıb.
İnzibati həbs müstəsna hallarda 3 aya kimi verilən inzibati xəta növüdür. Cinayət işindən fərqli olaraq inzibati həbslərə məruz qalmış şəxslər 10 gündən 90 günə qədər azadlıqdan məhrum edilə bilər. Azərbaycan Respublikası DSK-nın dərc etdiyi statistikaya əsasən 2011-2018-ci illər arasında inzibati həbslərin sayında 2 dəfədən çox artım müşahidə olunub. Əgər 2011-ci ildə inzibati məsuliyyətə cəlb edilmiş 28,026 şəxsdən 3,299-u inzibati həbsə məruz qalıbsa, bu rəqəm 2018-ci ildə 62,110 şəxsdən 8,449 şəxs təşkil etmişdir. Bu 8,449 şəxsin ən azı 78-nin siyasi motivlərlə həbs olunduğu faktlarla təsdiq olunub. İstisna deyil ki, siyasi motivli həbslərin sayı 78-dən yüksəkdir.

Qanunvericilkdə müstəsna hallarda tətbiq edilməsi nəzərdə tutulmasına baxmayaraq inzibati həbslərin belə kütləvi tətbiq edilməsi bu məsələ ilə bağlı hesabatın hazırlanmasının vacibliyini ortaya çıxarıb.

## Metodologiya

Təqdim olunan hesabat Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin şərhinə, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq və regional konvensiyalara, yerli və beynəlxalq təşkilatların hesabatlarına, Avropa Məhkəməsinin, Dövlət Statistika Komitəsinin statistikalarına və qərarlarına əsaslanır.

Araşdırma dövründə daxili və beynəlxalq qanunvericiliyin analizi aparılıb. Tendensiyanın istiqamətini doğru müəyyən etmək üçün 8 il ərzində (2011-2018) beynəlxalq təşkilatların hesabatlarının monitorinqi aparılıb. Eləcə də Avropa Məhkəməsinin həm inzibati həbslər, həm də pis rəftarla bağlı qərarlarının nəticələri analiz edilib.

2018-ci ildə inzibati həbs olunmuş və pis rəftara məruz qalmış 15 şəxslə görüşülüb və onlardan müsahibələr alınıb. Müsahibə alınan şəxslər müxtəlif siyasi kimliyə sahibdirlər. Alınan müsahibələr əsasında 2018-ci il üzrə inzibati həbslərin əsas səbəbləri, pis rəftar və müvəqqəti saxlanma yerlərinin vəziyyəti müəyyənləşdirilib.

## 1. Yerli qanunvericiliyin analizi

### 1.1 Azərbaycan Respublikasının Konstitusiyası

Ölkənin əsas qanunu kimi  Azərbaycan Respublikasının Konstitusiyasının bir neçə maddəsi inzibati həbslər və  pis rəftarın önlənməsinin tənzimlənməsində mühüm rol oynayır.
Konstitusiyanın 46-cı maddəsində göstərilir[1]:

> *I. Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.*
> *II. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.*
> *III. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.*

### 1.2 İnzibati Xətalar Məcəlləsi

Azərbaycanda inzibati həbslərə aid qanunvericilik İnzibati Xətalar Məcəlləsinə görə tənzimlənir.

[1] Azərbaycan Republikasının Konstitutisiyası, Maddə 46, http://www.e-qanun.az/framework/897

Azərbaycan Respublikasının İXM-nin 2-ci fəslinin 12-ci maddəsində inzibati xəta anlayışı aşağıdakı şəkildə izah edilir[2]:

*12.1. Bu Məcəllə ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıqdan törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur.*

*12.2. Bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulan əməllərə görə inzibati məsuliyyət o halda yaranır ki, bu əməllər cinayət məsuliyyətinə səbəb olmasın.*

İXM-nin 30-cu maddəsində inzibati həbs və onun tətbiq edilməsi halları haqqında məlumat verilir:[3]

*30.1. İnzibati həbs yalnız müstəsna hallarda inzibati xətaların ayrı-ayrı növlərinə görə üç ay müddətinədək hakim tərəfindən tətbiq edilir.*

*30.2. Hamilə qadınlar və ya himayəsində on dörd yaşınadək uşağı olan qadınlar, on dörd yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər, on səkkiz yaşına çatmayan şəxslər, birinci və ya ikinci qrup əlillər, sağlamlıq imkanları məhdud uşaqlar, altmış yaşına çatmış qadınlar və altmış beş yaşına çatmış kişilər, həmçinin hərbi qulluqçular, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları barəsində inzibati həbs tətbiq edilə bilməz.*

*30.3. İnzibati qaydada tutma müddəti inzibati həbs müddətinə daxil edilir.*

İnzibati həbslər müstəsna hallarda tətbiq edildiyi üçün İXM-nin yalnız müəyyən maddələrində inzibati cəza tədbiri kimi inzibati həbs nəzərdə tutulur. Məcəllənin yalnız 20 maddəsində baş verən inzibati xətalara görə inzibati həbs tətbiq edilir. Bu maddələr aşağıdakılardır:

**Döymə və başqa zorakı hadisələrə** görə həbs cəzası **2 ayadək** müddətə nəzərdə tutlur. [4]
**Narkotik və psixotrop maddələrin hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi, kultivasiyasına** görə də **2 ayadək** inzibati həbs tətbiq edilə bilər. [5]
**Oğurlama, dələduzluq hərəkətlərinə** görə isə maksimum yəni **3 ay müddətinə** kimi inzibati həbs cəzası verilə bilər. [6]
**Nəqliyyat vasitələrində** yaşanan qanun pozuntularına yol verən şəxslər **15 gündən 90 günə** qədər həbs cəzasına məruz qala bilər.[7]

---

[2] İnzibati Xətalar Məcəlləsi, Maddə 12, http://www.e-qanun.az/code/24
[3] İbid, Maddə 30
[4] İnzibati Xətalar Məcəlləsi, Maddə 157, http://www.e-qanun.az/code/24
[5] Ibid maddə 206 və 208
[6] Ibid maddə 227
[7] Ibid maddə 342-343

**Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların (məmulatların) mühafizəsi, pərakəndə satışı, uçotu, saxlanılması, onların qırıntılarının və tullantılarının yığılması** qaydalarının pozulması hallarında ***1 ayadək*** *müddətə inzibati həbs tətbiq olunur.*[8]
**Xırda xuliqanlıq və avtoxuliqanlığa** görə **2 aya** qədər inzibati həbs nəzərdə tutulur. [9]
Bunlardan əlavə "Toplantıların təşkili və keçirilməsi qaydasının pozulması"[10], "Fövqəladə vəziyyət rejiminin tələblərinin pozulması"[11], "Avaralıqla məşğul olma"[12], "Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi", "İnzibati cərimə və ictimai işlər növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın icra edilməməsi", "Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama" maddərində də inzibati həbs nəzərdə tutulur.

İXM qəbul olunduğu gündən bu günə qədər dəfələrlə dəyişikliyə məruz qalıb.

İnzibati həbs siyasi təzyiq vasitəsi kimi əvvəlki illərdə də istifadə olunsa da, 2013-cü ildə İXM-nə edilən dəyişikliklərə[13] əsasən inzibati həbslər daha da sərtləşdirilib. Bu dəyişikliyin əsas səbəbi şəhərin mərkəzində mütəmadi olaraq keçirilən dinc aksiyalar və flaşmoblar olub. 2013-cü ilin yanvar-mart aylarında Bakının mərkəzində keçirilən "Əsgər ölümlərinə son" aksiyasından sonra cəzaların sərtləşdirilməsi ilə bağlı qanunvericilik dəyişiklikləri parlamentin gündəminə daxil olub. Dəyişikliklərə görə həbslər 15 gündən 3 aya qədər artırılıb. Dəyişikliklərdən əvvəl inzibati həbslərin müddəti əsasən 5-10 sutka idisə, dəyişikliklərdən sonra bu rəqəm 10-60 sutkaya qalxdı və eyni zamanda cərimələr də artırıldı.
2014-cü ildə baş vermiş dəyişikliyə əsasən barəsində inzibati həbs tənbeh növünün tətbiqini nəzərdə tutan inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs 48 saatadək müddətə inzibati qaydada tutula bilir. Bu müddət əvvələr 24 saat idi.[14]
2016-cu ildən sonra isə hökümətlə razılaşdırılmış mitinqlərə görə də inzibati həbslər həyata keçirilməyə başlanılıb. 2016-cı ildən etibarən razılaşdırılmış mitinq gününə bir neçə gün qalmış ictimai fəalların, xüsusilə müxalif partiya üzvlərinin polis idarələrinə çağırılması, xəbərdarlıq edilməsi, təhdid edilməsi, cərimələnməsi, mitinqlərin təşkilində xüsusi rol oynayan şəxslərin və mitinq təşkilatçılarının isə əsasən polisə müqavimət ittihamı ilə inzibati həbslə cəzalandırılması praktikası həyata keçirilməyə başlanılıb (Hesabatın sonunda cədvəldə göstərilib). Son 2 ildə ictimai fəalların məruz qaldığı inzibati həbslərin 90%-ə qədəri polisə müqavimət ittihamı ilə həyata keçirilib.

[8] Ibid maddə 457
[9] Ibid maddə 510-511
[10] Ibid maddə 513
[11] Ibid maddə 517
[12] Ibid maddə 523
[13] http://e-qanun.az/code/13
[14] https://www.azadliq.org/a/25353974.html

20 oktyabr 2017-ci il tarixli dəyişikliyə əsasən 227-ci maddədəki, "Xırda talama"ya görə nəzərdə tutulan "**iki ayadək**" inzibati həbs cəzası "**üç ayadək**" həbs ilə əvəz edilib.[15]
Bundan əlavə 14 may 2013-cü il dəyişikliyə əsasən əvəllər maksimum həbs müddəti 15 gün idisə, indi bu müddət 90 günə qədər artırılıb. Eyni dəyişikliyə görə 68-ci maddədəki 15 günədək həbs cəzası 2 ayadək həbslə əvəz olunmuşdur. [16]

## 2. İşgəncələri qadağan edən qanunvericilik

İnzibati həbsə məruz qalmış şəxlərin hüquqları daxili qanunvericilikdə göstərilən şəkildə qorunmalıdır. Azərbaycan Respublikasının Konstitusiyası[17] və Azərbaycan Respublikasının Cinayət Məcəlləsi istənilən halda nəinki inzibati xəta, hətta ağır cinayət törətmiş şəxsə qarşı işgəncə və ya qeyri insani rəftarın tətbiq edilməsini qadağan edir. Cinayət Məcəlləsi görə isə pis rəftarı törədən şəxslərə 10 ilə kimi həbs cəzası verilə bilər.[18]
Polis haqqında qanunun 5-ci maddəsinin ikinci bəndidə isə göstərilir ki, polisin hər hansı şəxslə insanın ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir. Cinayət törədən və ya törətməkdə şübhələndirilən şəxsləri məlumat verməyə və ya cinayət əməlini törətməkdə təqsirini etiraf etməyə məcbur etmək, bu məqsədlə onları və digər şəxsləri hədələmək, işgəncəyə məruz qoymaq, onlara hər hansı fiziki və ya mənəvi təsir göstərmək qadağandır[19].
İşgəncə və ya qeyri insani rəftar "Əməliyyat axtarış fəaliyyəti" haqqında Azərbaycan Republikasının qanunu ilə qadağan edilib. Qanunun 8-ci maddəsində qeyd edilib ki, əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə öz səlahiyyətlərinin icra edilməsi zamanı insanların həyatını, sağlamlığını, əmlakını və qanuni mənafelərini təhlükə altına alan hərəkətlərə yol vermək, hər hansı şəxsi qanun pozuntularına təhrik etmək, zor işlətmək, hədələmək və şantaj etmək, habelə insan və vətəndaşların hüquq və azadlıqlarını, qanunla müdafiə olunan mənafelərini məhdudlaşdıran digər qanunsuz tədbirlərə əl atmaq, səlahiyyətindən kənara çıxan tədbirləri həyata keçirmək qadağan olunur.[20]
İşgəncə verənlərə qarşı Azərbaycan Respublikasının Cinayət Məcəlləsində[21] bir sıra cəzalar nəzərdə tutulur. Məcəllənin 133-cü maddəsində göstərilir ki, saxlanılan şəxsləri döyən və ya zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar verən şəxs üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## 3. İnzibati həbslər və pis rəftarla bağlı beynəlxalq qanunvericilik və standartların analizi

### Azərbaycan Respublikasının Konstitusiyası

[15] İnzibat Xətalar Məcəllədi Maddə 227 http://www.e-qanun.az/alpidata/code/data/0/c_c_24.htm#f2
[16] İnzibat Xətalar Məcəlləsi http://e-qanun.az/code/13
[17] Azəırbaycan Respublikasının Konstitusiyası, Maddə 46 http://e-qanun.az/code/24
[18] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Maddə 113 http://www.e-qanun.az/code/11
[19] Polis Haqqında Qanun, Maddə 5 http://www.e-qanun.az/framework/2937
[20] Əməliyyat Axtarış Fəaliyyəti haqqında qanun Maddə 8 http://www.e-qanun.az/framework/2938
[21] Cinayət Məcəlləsi Maddə 133 http://www.e-qanun.az/code/11

Konstitusiyanın 12-ci maddəsinin 2-ci bəndində Konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edildiyi göstərilib. Eləcə də Konstitusiyanın 148-ci maddəsinin 2-ci bəndi bildirir ki, "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir".[22] Buradan çıxan nəticəyə görə əgər respublikanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə yerli qanunvericilik arasında uyğunsuzluq yaranarsa, beynəlxalq müqavilələr tətbiq olunur.
Buna görə də istər inzibati həbs halında, istərsə də pis rəftarla bağlı qanunvericilik beynəlxalq hüquq normalarıyla uzlaşmalıdır.

### 3.1 Beynəlxalq sənədlər

Azərbaycan Respublikasının ratifikasiya etdiyi bir çox beynəlxalq müqavilələr və regional sənədlər özbaşına həbsi qadağan edir.
İnsan hüquqları üzrə Ümumi Bəyannamənin 3-cü maddəsi göstərir ki, "Hər bir şəxsin yaşamaq, azadlıq və toxunulmazlıq hüququ vardır". [23] Bəyannamənin 5-ci maddəsi insanın ləyaqətini alçaldan, qeyri-insani münasibəti və işgəncəni qadağan edir.
"İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalara qarşı" BMT-nin Konvensiyası işgəncəni mütləq qadağan edir və dövlətlər üzərində öz ərazisində yaşayan hər bir kəsin pis rəftara məruz qalmaması haqqında öhdəlik qoyur. Konvensiya eyni zamanda öhdəliklərin iştirakçı dövlətlər tərəfindən yerinə yetirilməsi üçün İşgəncələr əleyhinə Komitə də yaradıb. Hər dörd ildən bir iştirakçı dövlətlər Komitəyə hüquqların yerinə yetirilməsi ilə bağlı dövrü hesabat göndərməlidirlər. Azərbaycan bu Konvensiyanı 1996-cı ilin 16 avqustunda ratifikasiya edib. Kovensiyaya 2002-ci ildə Protokol əlavə edilib ki, bu protokola əsasən 2006-cı ildə İşgəncələr əleyhinə Alt-komitə yaradılıb. Alt-komitə dövlətin hesabatlarını nəzərdən keçirməkdən əlavə, dövlətlərə səfərlər təşkil edir və öz nümayəndələrini vəziyyəti araşdırmaq üçün ölkələrə göndərir. [24]Azərbaycan bu Protokolu 28 yanvar 2009-cu ildə imzalayıb.

"Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 9-cu maddəsinin 1-ci bəndinə əsasən "Hər bir insan azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Heç kim özbaşınalıqla həbs edilə və ya dustaqda saxlanıla bilməz. Heç kim qanunla müəyyən edilmiş əsaslardan başqa və qanuni prosedura uyğun olmadan heç bir halda azadlıqdan məhrum edilməməlidir".[25] Eləcə də paktın 7-ci maddəsi işgəncələri və qeyri-insani rəftarı qadağan edir. Azərbaycan Respublikası bu Paktı 1992-ci il 13 avqustda ratifikasiya edib. Bu da Paktın bütün ölkə ərazisində qüvvədə olması deməkdir.

---

[22] http://www.e-qanun.az/framework/897
[23] https://www.ohchr.org/EN/UDHR/Documents/UDHR_Translations/azb.pdf
[24] https://ijrcenter.org/un-treaty-bodies/subcommittee-on-prevention-of-torture/
[25] https://www.migration.gov.az/content/pdf/5acb034968016_M%C3%BClki%20v%C9%99%20siyasi%20h%C3%BCquqlar%20haqq%C4%B1nda%20Pakt.pdf

### 3.2 BMT və Avropa standartları

İşgəncənin qarşısının alınması üçün BMT bir sıra standartlar hazırlamışdır. Həmin standartlar aşağıdakılardır:

- "Məhbuslarla rəftara dair Minimal Standart Qaydaları"
- "Məhbuslara rəftara dair əsas standartlar"
- "Hər hansı formada tutulmuş və ya azadlıqdan məhrum olunmuş bütün şəxslərin müdafiəsi üzrə Prinsiplər Külliyatı"
- "Hüquq-mühafizə orqanları əməkdaşlarının Davranış Məcəlləsi"

Bu standartlar məhbuslara onların şərəf və ləyaqətini alçaltmadan davranmağı müəyyən edir və işgəncəni qadağan edir.

Avropa Şurası işgəncələrin qarşısını almaq üçün bir sıra sənədlər hazırlamışdır. Həmin sənədlər aşağıdakılardır:

- "Avropa Həbsxana Qaydaları" (2006-cı ildə yenidən baxılıb)
- "Polis haqqında Bəyannamə"
- "Polis etikasına dair Avropa Məcəlləsi"
- İşgəncənin qarşısının alınması üzrə Avropa Komitəsinin hazırladığı standartlar

"Polis haqqında Bəyannamə" və "Polis etikasına dair Avropa Məcəlləsi" polis işçilərinə hər bir halda istənilən növ pis rəftarı istifadə etməyi qadağan edir.
Azərbaycan BMT-nin və Avropa Şurasının üzvü olduğu üçün bu standartlar ölkə ərazisində tətbiq olunmalıdır.

## 4. Beynəlxalq hesabatlarda inzibati həbs və pis rəftarın təhlili

Bu bölmədə Avropa Şurasının İşgəncələrin aradan qaldırılması üzrə Komitəsinin səfərlərinin hesabatları, ABŞ Dövlət Departamenti, Amnesty İnternational, Human Rights Watch təşkilatlarının illik hesabatları monitorinq edilib təhlil edilib.

### 4.1 Beynəlxalq hesabatlar

Avropa Şurasının İşgəncələrin aradan qaldırılması üzrə Komitəsi 2011-2018-ci illər ərzində Azərbaycana 5 səfər edib. Səfərlər 2012, 2013, 2015, 2016 və 2017-ci illərdə təşkil olunmuşdur. Səfərlərdən 4-ü həbsxana yerlərini əhatə edib, bir səfər isə yalnız psixi və sağlamlıq məhdudiyyətli şəxslərin saxlandığı müəssisələrə edilmişdir. 2012-ci ildəki səfərin hesabatına əsasən polis tərəfindən saxlanılan şəxsin saxlanıldığı an ailəsi və ya qohumlarına xəbər vermək hüququ var, buna görə də Komitə Azərbaycan Hökumətinə tövsiyə edir ki, şəxslərə ailələri ilə əlaqə yaratmağa şərait yaradılsın və ya bunu polis etsin. Əlavə olaraq Komitə şəxslərin vəkil və həkimlə təmin edilməsində problemləri vurğulayıb. Komitə

saxlanılan şəxslərin yenidən sorğu üçün polisə gətirilməməsini də tövsiyə edib.[26] 2015-ci ildəki hesabatda həbsxana işçilərinin və polisin davranış qaydaları ilə bağlı tövsiyələr vurğulanıb. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən məhbusun həbsxana rejimi məhkəmə tərəfindən müəyyən edilir. Komitəyə görə həbsxana qaydalar və rejim həbsxana nümayəndələri tərəfindən müəyyən edilməlidir, ona görə də Komitə tövsiyə edir ki, Cinayət Məcəlləsinə yenidən baxılsın. Eyni zamanda Komitə 14 nömrəli həbsxanada və Yeniyetmələr üçün müəssisələrdə dəyənəklə döyülmə hallarına rastlayıb (ən azı iki halda). Buna görə də Komitə bu hal dərhal dayandırılmasını və problemli situasiyaları həll etmək üçün həbsxana heyətinin bacarıqları artırılmasını tövsiyə edib. [27] 2016-cı ildəki hesabatda Komitə müvəqqəti inzibati saxlanma yerləri ilə bağlı bir neçə tövsiyə bildirib. İnzibati məhbuslar müvəqqəti saxlanma yerlərində uzun müddət saxlanıla bilər, amma bu müəssisələr belə uzun müddət üçün uyğun deyil. Çünki saxlanılanlar üçün heç bir fəaliyyət növü yoxdur. Ona görə də Komitə hökumətə tövsiyə edib ki, Müvəqqəti Saxlanma Təcridxanalarında (bundan sonra MST) uzun müddət qalanlar üçün fəaliyyətlər təşkil olunsun (məsələn, radio, TV və stolüstü oyunlar), eləcə də onlara telefon zənglərinə, görüşlərə imkan yaradılsın. Bundan əlavə hər məhbus üçün saxlanma yerinin ərazisi də minimum standartlara uyğun olmayıb (bir nəfər üçün ərazi minimum 4 $m^2$ olmalıdır). Məsələn, 4 məhbus üçün yer Sabunçu rayon MST-da 12 $m^2$, Nərimanov rayon MST-da 12.5 $m^2$, Binəqədi rayon MST-da 13.5 $m^2$, Göygöl şəhər MST-da 14 $m^2$ olmuşdur. Buna görə də Komitə tövsiyə edir ki, bütün MST-larda hər məhbus minimum 4 $m^2$ ərazi ilə təmin edilsin. [28] Komitənin son - 2017-ci ildəki səfərinin hesabatında isə digər illərdəki məsələlərlə yanaşı qidalarla və həkimlərlə bağlı məsələlərə toxunub. Komitəyə əsasən həkimlər məhbusların cəza üçün (disiplin cəzası) uyğun olmalarını təsdiqləməyə məcbur edilir. Komitə səlahiyyətli orqanları bu tələbi ləğv etməyə çağırıb. Bundan əlavə Komitənin məlumatına əsasən şəxslər polis binalarında, koridorlarda, ofislərdə bir neçə saat, bəzən bir gecə saxlanılır və onlara nə tualetə, nə də qidaya icazə verilir. Komitə səlahiyyətli orqanları polis binalarının, koridorların saxlanma məntəqələri kimi istifadə edilməsini dayandırmağa, tualetdən istifadəyə və saxlanılanların gündə ən azı bir dəfə tam yeməklə təmin edilməsinə şərait yaratmağa çağırıb.[29]

Komitəylə yanaşı ABŞ Dövlət Departamentinin, Amnesty International və Human Rights Watch-ın illik hesabatlarında işgəncə və qanunsuz həbslərlə bağlı çoxlu faktlar öz əksini tapıb. Bu hesabatlara əsasən müəyyən olur ki, ümumilikdə işgəncə və digər pis rəftar halları əsasən polis şöbəsində olarkən törədilmişdir. Şəxslər müvəqqəti saxlanma təcridxanalarına köçürüldükdən sonra işgəncə və digər pis rəftar halları dayandırılır.

Siyasi motivli inzibati həbslər isə daha çox şəxslər sərbəst toplaşmaq azadlığını həyata keçirərkən baş verib.

---

[26] https://rm.coe.int/16808c5e1f
[27] https://rm.coe.int/16808c5e40
[28] https://rm.coe.int/16808c5e43
[29] https://rm.coe.int/16808c5e46

### 4.2 BMT-nin İşgəncələr əleyhinə Alt-komitəsinin hesabatları

BMT-nin İşgəncələr əleyhinə alt-komitəsinin bu günə kimi 12 dəfə illik hesabatı nəşr olunub. Hər hesabatda müəyyən ölkələrə səfərlər daxildir. Azərbaycana səfər 2014-cü ilin 8-17 sentyabr tarixlərində baş tutsa da, Komitə müdaxilələrə görə öz səfərini 14 sentyabrda yarıda saxlayıb. Komitəyə müvəqqəti saxlanma yerlərinə girişdə məhdudiyyətlər qoyulub.[30] Daha sonra 2015-ci ilin 16-24 aprel tarixlərində (6 ay sonra) Komitə Azərbaycana səfərini tamamlayıb. Bu dəfəki səfərində Komitəyə saxlanma yerlərinə səfərlərdəki məhdudiyyətlər aradan qaldırılıb və Komitə eyni zamanda məhbuslarla da görüşə bilib[31]. Təəssüf ki, hazırlanan hesabatın mətni gizlidir və ictimaiyyətlə paylaşılmayıb[32].

### 4.3 Avropa Məhkəməsinin qərarları

Konvensiyanın 3-cü maddəsi işgəncə və pis rəftarı qadağan edir. Avropa Məhkəməsi pis rəftarı yalnız şiddətin minimum dərəcəsinə düşdükdə tanıyır. Azərbaycanla bağlı Məhkəmənin hər üç işində (Mustafa Hacılı Azərbaycana qarşı[33], Mehdiyev Azərbaycana qarşı[34] və Emin Hüseynov Azərbaycana qarşı[35]) Məhkəmə 3-cü maddənin pozuntusunu tanıyıb. Məhkəmə daha çox hökumətin ekspertizanı gecikdirməsi, bütün sübutlar və imkanlardan istifadə etməməsi və yalnız polislərin ifadələrini aldığına görə pozuntuları tanıyıb.

Konvensiyanın 5-ci maddəsi şəxslərin həbs edilməsini qanunsuz şəkildə qadağan edir. Konvensiya 5-ci maddənin pozuntusunu həbsdə pis niyyət olan zaman və qanunvericilik düzgün tətbiq edilmədiyi halda tanıyır. Bu barədə baxılan iki işdə (Qafqaz Məmmədov Azərbaycana qarşı[36], Hüseynli və başqaları Azərbaycana qarşı[37]) Məhkəmə 5-ci maddənin pozuntusunu tanıyıb. Hər iki haldan belə nəticə çıxır ki, əsasən rəsmi olaraq polisə müqavimətlə ittiham olunsalar da, ərizəçilər nümayişlərdə iştirakına və siyasi partiyaların aktiv üzvləri olduqları üçün saxlanılıblar.

---

30 https://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=15047&LangID=E

31 https://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=15886&LangID=E

32 https://tbinternet.ohchr.org/_layouts/15/TreatyBodyExternal/CountryVisits.aspx?SortOrder=Alphabetical

33 https://hudoc.echr.coe.int/eng#{%22fulltext%22:[%22\%22CASE%20OF%20MUSTAFA%20HAJILI%20v.%20AZERBAIJAN\%22%22],%22languageisocode%22:[%22ENG%22],%22respondent%22:[%22AZE%22],%22documentcollectionid2%22:[%22JUDGMENTS%22],%22violation%22:[%223%22],%22itemid%22:[%22001-168862%22]}

34 https://hudoc.echr.coe.int/eng#{%22fulltext%22:[%22case%20of%20mehdiyev%22],%22languageisocode%22:[%22ENG%22],%22respondent%22:[%22AZE%22],%22documentcollectionid2%22:[%22JUDGMENTS%22],%22violation%22:[%223%22],%22itemid%22:[%22001-155196%22]}

35 https://hudoc.echr.coe.int/eng#{%22fulltext%22:[%22case%20of%20emin%20huseynov%22],%22languageisocode%22:[%22ENG%22],%22respondent%22:[%22AZE%22],%22documentcollectionid2%22:[%22JUDGMENTS%22],%22violation%22:[%223%22],%22itemid%22:[%22001-154161%22]}

36 https://hudoc.echr.coe.int/eng#{%22tabview%22:[%22document%22],%22itemid%22:[%22001-160429%22]}

37 https://hudoc.echr.coe.int/eng#{%22tabview%22:[%22document%22],%22itemid%22:[%22001-157705%22]}

# 5. İnzibati həbslərin statistikası

## 5.1 2011-2018-ci illər arasında inzibati həbslər

Dövlət Statistika Komitəsinin dərc etdiyi statistikaya əsasən 2011-2018-ci illər arasında inzibati həbslərin sayında 2 dəfədən çox artım müşahidə olunur [38]. Əgər 2011-ci ildə inzibati məsuliyyətə cəlb edilmiş 28026 şəxsdən 3299-u inzibati həbsə məruz qalıbsa, bu rəqəm 2018-ci ildə 62110 şəxsdən 8449 şəxs təşkil edib. Bundan əlavə 2011-2018-ci illərin statistikalarına baxarkən görmək olar ki, xəbərdarlıq inzibati tənbeh növü kimi getdikcə daha az istifadə olunub. Belə ki, 2011-ci ildə xəbərdarlıq 4368 dəfə istifadə olunsa da, 2018-də bu rəqəm cəmi 4 olmuşdur.[39] Bu da ümumi olaraq 1000 dəfədən çox olaraq azalma deməkdir. Ümumi statistikanın qrafiklə təsviri aşağıdakı kimidir:




## 5.2 2018-ci ildə siyasi motivli inzibati həbslər

2018-ci ildə inzibati həbsə məruz qalmış 8449 şəxsdən 78-i siyasi motivlərlə həbs olunub. 78 şəxsdən ən çox inzibati həbsə məruz qalan Azərbaycan Xalq Cəbhəsi Partiyası (bundan sonra AXCP) üzvləri olub (35 nəfər). Milli Şuranın 2018-ci il 11 aprel prezident seçkiləri zamanı keçirdiyi 3 razılaşdırılmış mitinqdə isə 174 nəfər polis idarələrinə çağırılıb, onlardan 17 nəfər polisə müqavimət ittihamı ilə 10 sutkadan 30 sutkaya qədər inzibati həbslə cəzalandırılıb, geridə qalanı isə eyni şəkildə cərimələnib və ya xəbərdarlıq edilərək sərbəst buraxılıb. 28 may

[38] https://www.stat.gov.az/source/crimes/ - Birinci instansiya məhkəmələrinin işi, Birinci instansiya məhkəmələrində inzibati xətalar haqqında baxılmış işlər üzrə inzibati qaydada məsuliyyətə cəlb edilmiş şəxslər

[39] https://www.stat.gov.az/source/crimes/ - Nəşrin elektron versiyası, Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar, 2019

2018-ci il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar ReAl Partiyası və bir çox vətəndaş cəmiyyəti fəalları tərəfindən Cümhuriyyət Abidəsinə ziyarət təşkil olunub. Ziyarətdən sonra iştirakçıların Bakı Bulvarına gəzinti-yürüşünə icazə verilməyib. Tədbirdən bir gün sonra Real Partiyasının sədr müavini də daxil olmaqla 10-dan artıq şəxs polis idarələrinə çağırılıb, onlardan 4 nəfərə 25-30 sutka inzibati həbs cəzası verilib.
İnzibati həbs günlərinin sayı 10-60 gün arası dəyişmişdir. Bu müddətdə ən çox həbs mart ayında, ən az həbs isə sentyabr ayında baş tutmuşdur. İnzibati həbsə məruz qalanların əsasən 535.1 (55 halda), yəni polisə qəsdən tabe olmama maddəsi ilə həbs olunublar. İki halda isə həm maddə 510 (sərbəst toplaşma azadlığı haqqında qanunu pozma), həm də maddə 535.1 tətbiq olunub. Aşağıda müxtəlif qrafiklərlə 2018-ci ilin statistikası müqayisəli verilib:




İnzibati həbsin müddəti
60
30
25
20
15
10
0
5
10
15
20
25
30
35
40
Müddətin verilmə sayı


Maddənin istifadə olunma tezliyi
60
50
40
30
20
10
0
206
227
334.1
510
513.2
535.1
510 və 535.1
Bilinmir
İstifadə olunan maddələr


Həbs olunanların mənsubiyyəti
35
9
11
3
2
13
5
AXCP
Mühacirlərin qohumları
Facebook fəalları
Jurnalist və hüquqşünaslar
Müsəlman birliyi
Digər partiyalar və təşkilatlar
Digər fərdi şəxslər

## 6. 2018-ci ildə inzibati həbslərdə pis rəftar və saxlanma yerlərinin vəziyyəti

Bu bölmədə siyasi motivlərlə inzibati həbsə məruz qalmış 15 şəxslə müsahibələr əsasında pis rəftar və saxlanma yerlərinin vəziyyəti analiz edilib. Müsahibələrə əsasən siyasi əsaslarla inzibati həbslərə məruz qalmış şəxslər bir çox hallarda həm məhkəmə qərarı öncəsi saxlandıqları polis bölmələrindəki saxlanma yerlərində, həm məhkəmə qərarından sonra göndərildikləri müvəqqəti saxlanma təcridxanalarında qeyri-insani rəftara məruz qalırlar. Bu əsasən iki formada baş verir.

1. Saxlanma yerləri tələb olunan standartlara cavab vermir.
2. Polisin fiziki və psixoloji zorakılığına məruz qalırlar.

Digər tərəfdən onlar vəkillə təmin olunmur, dövlət tərəfindən təqdim edilən vəkillər birbaşa istintaq orqanlarının sifarişini yerinə yetirir, onlara oxumaq üçün gündəlik qəzet verilmir, tibbi müayinələr normal aparılmır, telefon və görüşə icazə verilmir. Bəzi hallarda isə saxlanılan şəxslər hətta işgəncələrə məruz qalır.

Bundan əlavə inzibati həbsə məruz qalanlar bildirir ki, heç bir əsas olmadan onlar polis bölmələrinə aparılır, ədalətli araşdırma olmadan polislərin rəyinə əsasən məhkəmələr qərar çıxarıb onları inzibati həbsə məhkum edirlər. Məhkəmələr bir qayda olaraq hüquq mühafizə orqanlarının rəylərini etibarlı hesab edir.

İşgəncə və pis rəftarla bağlı şübhəli, təqsirləndirilən şəxslər, o cümlədən inzibati həbs cəzasına məhkum edilən şəxslərdən gələn çoxsaylı şikayət və iddialara baxmayaraq, bu iddialar nə yuxarı hüquq mühafizə orqanlarında, nə də məhkəmələrdə obyektiv araşdırılmır. Azərbaycan İnsan Hüquqları Müvəkkilinin illik hesabatlarında da  işgəncə iddialarına nəinki toxunulmur, hətta hüquq mühafizə orqanlarında, müvəqqəti saxlanma yerlərində, təcridxana və həbsxanalarda işgəncə və digər pis rəftar hallarının baş verməmədiyi iddia edilir. Məsələn, Obdusmanın 2018-ci il üzrə İllik Məruzəsində cəmi iki dəfə işgəncə sözü işlədilib, onlar da işgəncə halının baş verməmədiyini iddia etmək üçün istifadə olunub.[40] Digər pis rəftar formalarına gəlincə, Məruzədə də belə hallar da qətiyyətlə inkar edilir. Halbuki işgəncə və pis rəftarla bağlı həm BMT,[41] həm də Avropa Şurasının[42] müvafiq komitələrinin hesabatları işgəncənin Azərbaycanda geniş yayıldığını və fiziki və psixoloji təzyiqin əsas etiraf vasitələrindən biri kimi istifadə olunduğu  ifadə edilir, bununla bağlı nümunələr göstırilir.

### 6.1 Pis rəftar

Siyasi motivli inzibati həbsə məruz qalmış 15 şəxslə apardığımız intervyu zamanı məlum olub ki, müvəqqəti saxlanılan zaman onlara qarşı fiziki və psixoloji təzyiqlər olub. Onlar bildirir ki, təcridxanada saxlanılan zaman onların hüquqları qanunvericiliyə uyğun şəkildə qorunmayıb.

---

[40] http://www.ombudsman.gov.az/az/view/pages/59

[41] https://tbinternet.ohchr.org/_layouts/15/treatybodyexternal/Download.aspx?symbolno=CAT%2fC%2fAZE%2fCO%2f4&Lang=en

[42] https://www.coe.int/en/web/cpt/-/azerbaijan-torture-impunity-and-corruption-highlighted-in-new-anti-torture-committee-publications

İnzibati həbs zamanı onların üzləşdiyi əsas problemlər keyfiyyətsiz qida, hamamdan istifadə etməmə, gün ərzində yatmaq qadağası və s. problemlər olub.

Müsahiblərimiz AXCP, REAL, Müsavat partiyalarından, D18 hərəkatından və fərdi şəxslər olmuşdur. Müsahiblərimizdən biri, REAL Partiyasının üzvü Ərəstun Baxşəliyev bildirir ki, onu "Polisə müqavimət" (535.1-ci maddə) maddəsiylə həbs ediblər. Lakin əsl səbəb 28 May Respublika Günü ilə əlaqədar şəhərin mərkəzində keçirilən anım tədbirində iştirak etməsi olub. Müsahibimiz bildirib ki, saxlanıldığı andan ona pis davranılıb, həbs müddəti boyunca o açıq havaya çıxarılmayıb. Qidası isə su və peçenyədən ibarət olub.

Partiyanın digər üzvü Samir Aşurov da bildirir ki, əsl səbəb onun mitinqə çağırış etməsi olub. O əlavə edir ki, saxlanılan zaman polislər onunla pis rəftar edib, təhqir edib və fiziki zorakılığa məruz qalıb: ona yerləri sildirib, tualet təmizlədib və bunları kamera ilə qeydə alıblar. O, bütün bunları təzyiq altında etdiyini, əgər etməsə dubinka ilə onu döyəcəkləri ilə hədə-qorxu gəldiklərini qeyd edib. Gənc fəal əlavə olaraq bildirib ki, Sabunçu Rayon Polis İdarəsində onu 1 saata yaxın döyüb, eyni zamanda bədəninə elektrik qoşaraq işgəncə veriblər. Binəqədi Saxlanma Təcridxanasında isə eyni anda 8 nəfərin onu döydüyünü deyib.

Mitinq ərəfəsi inzibati həbs olunanlardan AXCP partiyasının üzvü olan Baba Süleyman isə bildirir ki, onun inzibati həbsi zamanı siyasilər hər hansı təzyiqə məruz qalmayıblar. Əsas təzyiqlər narkotik maddə aludəçilərinə qarşı olub. Bunun səbəbi isə siyasi fəalların öz hüquqlarını bilməsi olub. Onun həbsi müddəti boyunca əsas problemlər yeməklərin çox pis olması və gün ərzində yata bilməmək olub.

D18 hərəkatından olan Zaur Rövşənli isə taksi gözləyərkən polis müqaviməti ilə üzləşdiyini, bunun səbəbini öyrənmək istədikdə polis tərəfindən bölməyə aparıldığını və haqqında polisə müqavimət iddiası ilə 10 sutka inzibati həbs tətbiq edildiyini bildirib. O, pis rəftara məruz qalmadığını, lakin yaxşı qidalanma və hamamın olmadığını qeyd edib. Gənc fəalın bildirdiyinə görə, inzibati həbslərə məruz qalanlara göstərilən digər təzyiq vasitəsi isə onlara göndərilən qidaların müəyyən hissəsinin əməkdaşlar tərəfindən mənimsənilməsi olub.

Digər fəal Bəşir Tarıverdiyev bildirir ki, AXCP üzvü olduğu üçün ona "Polisə müqavimət" maddəsiylə 20 sutka inzibati həbs cəzası verilib. O deyir ki, polis bölməsində onu əli arxadan qandalla bağlanmış şəkildə 7 saat saxlayıblar. Yalnız hakim təkidindən sonra onun əlini açıblar.

Partiyanın digər üzvü İsmayıl Həsənov da saxlanılan zaman polis bölməsində və təcridxanada hədə-qorxuya məruz qaldığını bildirir.

### 6.2 Saxlanma yerlərinin vəziyyəti

İnzibati həbs cəzası almış şəxslər Binəqədi rayonunda yerləşən İnzibati Saxlanma Təcridxanasında saxlanılır. Bəzi hallarda isə polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanıla bilirlər. Bundan əlavə bölgələrdə inzibati şəkildə azadlıqdan məhrun edilən şəxslər də polis bölmələrində saxlanılır.

Saxlanma yerlərinin vəziyyəti ilə sullarımıza cavab olaraq mühasiblərimiz bildirir ki, bəzən kamerada nəzərdə tutulandan daha çox adam qalır, bu səbəbdən onlar növbə ilə yatmağa məcbur olurlar.

Məsələn, müsahibimiz Elvin Abdullazadənin (Müsavat Partiyasi) verdiyi məlumta görə onun qaldığı kamera 6 nəfərlik olsa da, bu kamerada 12 nəfər qalıb. Digər fərdi müsahibimiz Emin Aslanov da həbsxana şəraitindın danışarkən 6 nəfərlik kameralarda 8-10 nəfərin saxlanıldığını qeyd edib.

Qidalanma şərtlərinə haqqında bir çox müsahiblər yeməklərin az miqdarda verildiyini və kalorili olmadığını qeyd edib. Məsələn, AXCP üzvü Baba Süleymanov qeyd edir ki, yeməklər gündə üç dəfə verilsə də, dadlı olmayıb və az miqdarda verilib. D18 hərəkatının üzvü Zaur Rövşənli isə qeyd edib ki, göndərilən yeməklər polislər tərəfindən alınıb. Məsələn, əgər iki ədəd çörək göndərilibsə, bir ədədi polislər tərəfindən mənimsənilib. Emin Aslanov isə qeyd edir ki, yeməklər kalorili olmadığından qidaları kənardan alıb. AXCP üzvü Hikmət Əliyev onların yeməyi "boyat çörəyin ⅙ hissəsi, çaya bənzər maye və az miqdarda keyfiyyətsiz yemək"dən ibarət olub. REAL partiyasının üzvü Ərəstun Baxşəliyev qeyd edir ki, onun gündəlik yeməyini su və 3-6 arası peçenye təşkil edib. O, Binəqədi təcridxanasını tərk edərkən 14 kilo itirib.

Saxlanma yerlərində pis rəftar halları fiziki şiddətdən daha çox, müxtəlif formalarda baş verib( sözlü təzyiqlər və saxlanılanların hava almağa buraxılmamaqları). Təzyiqlər daha çox polis məntəqəsində olarkən baş verib. Ruslan Nəsirlinin verdiyi məlumata görə, o, inzibati həbsi başa vurarkən polis şöbəsinin müavini Anar adlı şəxs onu uzunmüddətli həbs ilə hədələyib. D18 hərəkatının üzvü Zaur Rövşənli bildirir ki, ona çimməyə şərait yaradılmayıb. REAL partiyasının üzvü Aşurov Samir isə qeyd edir ki, ona inzibati həbs boyunca yerləri yuduzdurub, telefonla çəkiblər. O, həm də dubinka ilə döyülməklə təhdid edilib. AXCP üzvü Hikmət Əliyev isə qeyd edib ki, 15 günlük inzibati həbs boyunca onu yalnız bir dəfə - Apellyasiya Məhkəməsinə gedərkən açıq havaya çıxarıblar.

## Nəticə və tövsiyələr

1.İctimai fəallar hər hansı bir inzibati xətaya yol verdiklərinə görə deyil, ictimai və siyasi fəaliyyətinə görə inzibati həbsə məruz qalırlar. Bu inzibati həbslər siyasi motivli olub ədalətli məhkəmə araşdırması olmadan, adekvat müdafiə ilə təmin edilmədən, polislərin ifadələrinə əsaslanmaqla yerli məhkəmələrin qərarı ilə tətbiq edilir. Bu cür inzibati həbslər demokratik cəmiyyətdə ifadə, sərbəst toplaşmaq və birləşmək azadlıqlarını sarsıdır, bu hüquq və azadlıqlardan istifadənin çərçivəsinin daralmasına gətirib çıxarır.

2.Yerli məhkəmələrdə proseslər qısa müddət davam edir ki, bu da barəsində inzibati xəta haqqında protokol tərtib edilən şəxslə öz müdafiəsini effektiv qurmaq imkanından məhrum edir. Digər tərəfdən yerli məhkəmələrdə dövlət ittihamçısının iştirak etməməsi də məhkəmə proseslərinin Avropa Konvensiyası stantartlarına uyğun gəlmədiyinin başqa bir örnəyidir. Belə ki, inzibati işlərdə dövlət ittihamçısı iştirak etmədiyi üçün dövlət ittihamını da hakim müdafiə edir ki, bu da məhkəmənin ədalətlilik prinsipini pozur. Azərbaycandan Avropa Məhkəməsinə göndərilən ərizələr içərisində siyasi motivli inzibati həbslərdən verilən şikayətlər üstünlük təşkil edir.[43] Avropa Məhkəməsinə göndərilən siyasi motivli inzibati həbslər üzrə şikayətlər

[43] http://hudoc.exec.coe.int/eng?i=004-1743

üzrə Avropa Məhkəməsi indiyə qədər 21 qərar verib ki, onların demək olar ki, hamısında məhkəmə belə müəyyən edib ki, inzibati həbslər mitinqlərdə iştirak edən və ya etmək istəyən fəalların qarşısını almaq məqsədilə həyata keçirilib.
İnzibati xətalarla bağlı cəzalar siyasəti çox sərtdir. Statisikaya əsasən şübhəli şəkildə xəbərdarlıq növündə tənbeh növünün tətbiqi azalıb. Polisin qanuni tələblərinə tabe olunmaması kimi inzibati xətanın açıq üstünlük təşkil etməsi ya polislə vətəndaşlar arasında etimad münasibətinin olmaması, ya da polisin bu maddədən sui-istifadə etməsinin göstəricisidir.
3. 2013-cü ildə İnzibati Xətalar Məcəlləsinə sərt dəyişikliklər edilməsinə baxmayaraq, inzibati həbslərin sayında azalma yox, artım tendensiyası davam edir. Bu da sərt tənbeh siyasətinin inzibati xətalarla mübarizədə effektiv olmadığını göstərir.
Siyasi motivli inzibati həbsə məruz qalanların qarşılaşdığı başqa bir problem saxlanıldıqdan sonra da pis rəftara məruz qalmalarıdır. Keçirilən intervyular nəticəsində bəlli olub ki, inzibati həbsə məruz qalanlar saxlanıldıqdan sonra polis bölmələrində, cəza təyin edildikdən sonra isə müvəqəti saxlanma yerlərində, xüsusilə Binəqədi Saxlanma Təcridxanasında pis rəftara məruz qalıblar. Belə ki, onlara mitinq və toplantılarda iştirak etməmək üçün fiziki və psixoloji təzyiq edilib, standartlara cavab verməyən, nəm və soyuq yerlərdə saxlanılıb, bəzi hallarda yataqla təmin edilməyiblər. Onlara cəza müddətində kənardan yemək gətirilməsi qadağan edilib, saxlanma yerlərində verilən yeməklər isə çox az olub, bir insanın gündəlik qidalanması üçün tələb olunan səviyyədən aşağı olub.

Qeyd edilənləri nəzərə alaraq aşağıdakı tövsiyələri edirik:

- İnzibati həbslərlə bağlı qanunvericiliyin sərtləşdirilməsi məsələni həll etmədiyi üçün, daha yumşaq vasitələrdən istifadə olunmalıdır. Məsələn, inzibati tənbeh növü kimi xəbərdarlıq daha çox istifadə oluna bilər.
- Polis ilə vətəndaşlar arasında etimad yaradılması üçün polis orqanlarında əsaslı islahat aparılmalıdır.
- Bu cür hallarda hüquq və azadlıqların qorunması, ədalətli məhkəmə prinsipləri Avropa Konvensiyasının tələblərinə uyğun hala gətirilməlidir.
- İnzibati həbslərdən siyasi təzyiq vasitəsi kimi istifadə olunmasına son qoyulmalıdır.
- İnsanlar siyasi fəaliyyətinə, mitinqlərdə iştirak etməyinə görə polis idarələrinə çağırılmamalıdır, saxlanılanların dərhal vəkilləri və ailəsi ilə əlaqə yaratmasına şərait yaradılmalıdır.
- Saxlanılanlara qarşı fiziki və psixoloji təzyiqlərə son qoyulmalıdır, saxlanma yerlərinin vəziyyəti və yeməklərin vəziyyəti yaxşılaşdırılmalıdır, onlar adekvat yataqla təmin edilməlidir, onların saxlanma şəraiti minimum standartlara cavab verməlidir.
- Məhkəmə zamanı bütün proseslər ədalətli araşdırılmalı və adekvat qərar çıxarılmalıdır.
- İnzibati həbslər zamanı Azərbaycanın üzərinə götürdüyü beynəlxalq öhdəliklər yerinə yetirilməlidir.
- İşgəncə və pis rəftara yol verən polis və digər məsul şəxslərə qarşı cinayət təqibi başlanmalı və bütün faktlar ədalətli araşdırılmalıdır;

- Ombudsmanın əsas fəaliyyətləri arasında olduğuna görə onun işgəncə və pis rəftar faktlarına dair ayrıca hesabatda bölmə olmalı, ictimai qaydada yayılan bütün işgəncə xəbərlərinə mövqe bildirilməli, məsul şəxslərin məsuliyyətə cəlb edilməsi tələbi aydın ifadə edilməlidir.
- AİHM-in qərarlarında nəzərdə tutulan qanunvericiliklə və praktika ilə bağlı məsələlər Konvensiyanın 46-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq dərhal yerinə yetirilməlidir.

## 2018-ci ildə siyasi motivlərlə inzibati həbslərə məruz qalanların siyahısı

| No. | Ad Soyad | Tarix | Mənsubiyyəti | Məhkəmə | İnibati Xətalar Məcəlləsinin müvafiq maddəsi | Cəza (sutka) |
|---|---|---|---|---|---|---|
| 1. | Natiq Kazımov | 05 Yanvar | AXCP | Abşeron Rayon Məhkəməsi | 535.1 | 30 |
| 2. | Hüseyn Həsənli | 28 yanvar | KXCP | Nərimanov Rayon Məhkəməsi | 535.1 | 30 |
| 3. | Samir Babayev | 03 Fevral | Müsəlman Birliyi Hərəkatı | Sabunçu Rayon Məhkəməsi | 206 | 60 |
| 4. | Mahir Quliyev | 03 Fevral | Müsəlman Birliyi Hərəkatı | Sabunçu Rayon Məhkəməsi | 535.1 | 30 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5. | Elman Ağayev | 13 fevral | Mühacir fəal Məhəmməd Mirzəlinin qohumu | Binəqədi Rayon Məhkəməsi | 535.1 | 30 |
| 6. | Abuzərov Abdulla | 17 fevral | Mühacir fəal Elmir Şirəliyevin qohumu | Hacıqabul Rayon Məhkəməsi | 535.1 | 30 |
| 7. | Səbuhi Zeynalov | 19 fevral | Mühacir fəal Orduxan Teymurxanın qohumu | Nərimanov Rayon Məhkəməsi | 535.1 | 30 |
| 8. | Tural Əliyev | 19 fevral | Mühacir fəal Orduxan Teymurxanın qohumu | Nərimanov Rayon Məhkəməsi | 535.1 | 30 |
| 9. | Aydın Məmmədov | 20 fevral | Mühacir fəal Camal Seyidlinin qohumu | Nizami Rayon Məhkəməsi | 535.1 | 30 |
| 10. | Elgiz Sadıqlı | 23 fevral | Mühacir fəal Tural Sadıqlının qardaşı | Sabunçu Rayon Məhkəməsi | 535.1 | 30 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 11. | Tofiq Məmmədov | 23 fevral | AXCP | Yasamal Rayon Məhkəməsi | 535.1 | 15 |
| 12. | Yalçın Abdullayev | 07 Mart | AXCP | Binəqədi Rayon Məhkəməsi | 535.1 | 15 |
| 13. | Faiq Nağıyev | 07 Mart | AXCP | Xətai Rayon Məhkəməsi | 535.1 | 20 |
| 14. | Tahir Ağayev | 07 Mart | AXCP | Xəzər Rayon Məhkəməsi | 535.1 | 15 |
| 15. | Bəşir Tarıverdiyev | 07 mart | AXCP | Nəsimi Rayon Məhkəməsi | 535.1 | 20 |
| 16. | Hikmət Əliyev | 07 mart | AXCP | Binəqədi Rayon Məhkəməsi | 535.1 | 15 |
| 17. | Aqil Məhərrəmov | 08 mart | AXCP | Sabunçu Rayon Məhkəməsi | 535.1 | 15 |
| 18. | Samir Aşurov | 13 mart | REAL | Səbail Rayon Məhkəməsi | 535.1 | 15 |
| 19. | Abdulla Mahmudov | 27 mart | AXCP | Sabunçu Rayon Məhkəməsi | 535.1 | 30 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 20. | Orxan Baxışlı | 27 mart | AXCP | Xətai Rayon Məhkəməsi | 535.1 | 30 |
| 21. | Ayaz Qasımov | 27 mart | AXCP | Binəqədi Rayon Məhkəməsi | 535.1 | 15 |
| 22. | Baba Süleymanov | 13 aprel | AXCP | Nəsimi Rayon Məhkəməsi | 535.1 | 15 |
| 23. | Əliağa Məmmədov (Əli İmanxanlı?) | 13 aprel | AXCP | Məsimi Rayon Məhkəməsi | 535.1 | 15 |
| 24. | İsmayıl Həsənov | 13 aprel | AXCP | Nəsimi Rayon Məhkəməsi | 535.1 | 15 |
| 25. | Saqif Qurbanov | 13 aprel | AXCP | Səbail Rayon Məhkəməsi | 535.1 | 15 |
| 26. | Vidadi Quliyev | 14 aprel | AXCP | Səbail Rayon Məhkəməsi | 535.1 | 15 |
| 27. | Ruslan Nəsirli | 14 aprel | AXCP | Saatlı Rayon Məhkəməsi | 535.1 | |
| 28. | Məhərrəm Cəliloğlu | 25 aprel | AXCP fəalı Cəlil Məhərrəm ovun oğlu | Binəqədi Rayon Məhkəməsi | 206 | 60 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 29. | Tural Əliyev | 30 aprel | Mühacir bloger Orduxan Teymurxanın bacısı oğlu | Nizami Rayon Məhkəməsi | 206 | 60 |
| 30. | Əflatun Səfərov | 19 may | AXCP | Lənkəran Rayon Məhkəməsi | 535.1 | 30 |
| 31. | Elvin Abdullazadə | 22 may | Müsavat | Xətai Rayon Məhkəməsi | 535.1 | 30 |
| 32. | Rahib Səlimov | 22 may | AXCP | Nizami Rayon Məhkəməsi | 535.1 | 25 |
| 33. | Azər Qasımlı | 29 may | REAL | Yasamal Rayon Məhkəməsi | 535.1 | 30 |
| 34. | Elmin Həmzəyev | 30 may | REAL | Binəqədi Rayon Məhkəməsi | 535.1 | 25 |
| 35. | Ərəstun Baxşəliyev | 30 may | REAL | Yasamal Rayon Məhkəməsi | 535.1 | 30 |
| 36. | Nəriman İsmayılov (Mücahid) | 30 may | REAL | Nizami Rayon Məhkəməsi | 535.1 | 30 |
| 37. | Emin Aslanov | 04 iyun | Hüquqşünas | Nərimanov Rayon Məhkəməsi | 535.1 | 30 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 38. | Anar Məmmədov | 07 iyun | REAL | Yasamal Rayon Məhkəməsi | 535.1 | 10 |
| 39. | Füzuli Hüseynov | 14 iyun | AXCP | Səbail Rayon Məhkəməsi | 535.1 | 10 |
| 40. | Rauf Abdurəhmanlı | 14 iyun | AXCP | Şəki Rayon Məhkəməsi | 510 | 30 |
| 41. | Yaşar Ferazi | 4 iyul | AXCP | Abşeron Rayon Məhkəməsi | 535.1 | 30 |
| 42. | Rabil Qurbanov | 4 iyul | AXCP | Suraxanı Rayon Məhkəməsi | 535.1 | 30 |
| 43. | Əfqan Sadıqov | 7 iyul | Jurnalist | Nərimanov Rayon Məhkəməsi | 510 və 535.1 | 30 |
| 44. | Əliyev Elxan | | Facebook fəalı | | | 30 |
| 45. | Mehdiyev Aqil | | Facebook fəalı | | | 30 |
| 46. | Rəhimov Əli | | Facebook fəalı | | | 30 |
| 47. | Camalov Rəşad | | Facebook fəalı | | | 30 |
| 48. | Şıxəliyev Elsevən | | Facebook fəalı | | | 30 |
| 49. | Quliyev İlqar | | Facebook fəalı | | | 30 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 50. | Əliyev Rüfət | | Facebook fəalı | | | 30 |
| 51. | Şirinov İlknur | | Facebook fəalı | | | 25 |
| 52. | Sədi Kərimov | | Facebook fəalı | | | 20 |
| 53. | Babək Hüseynli | | Facebook fəalı | | | 10 |
| 54. | Afiq Həşimov | | Facebook fəalı | | | 10 |
| 55. | Ramin Əhmədov | 10 iyul | AXCP | Lənkəran Rayon Məhkəməsi | 535.1 | 25 |
| 56. | Tahir Mustafayev | 10 iyul | AXCP | Qazax Rayon Məhkəməsi | 535.1 | 10 |
| 57. | Vüqar Rzalı | 12 iyul | Müsavat | Cəlilabad Rayon Məhkəməsi | 535.1 | 20 |
| 58. | Namiq İbrahimov | 25 iyul | AXCP | Masallı Rayon Məhkəməsi | 535.1 | 30 |
| 59. | Zəfər Əhmədov | 27 iyul | AXCP | Xətai Rayon Məhkəməsi | 535.1 | 30 |
| 60. | Ramin Əhmədov | 21 Avqus t | AXCP | Yasamal Rayon Məhkəməsi | 535.1 | 15 |
| 61. | Bəşir Tanrıverdiye v | 21 avqust | AXCP | Yasamal Rayon Məhkəməsi | 535.1 | 10 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 62. | Əziz Qəhrəmanov (Şahinoğlu) | 15 sentyabr | Müsavat | Yasamal Rayon Məhkəməsi | 535.1 | 10 |
| 63. | Nemət Pənahlı | 12 oktyabr | Milli Dövlətçilik Partiyası | Nəsimi Rayon Məhkəməsi | 535.1 | 30 |
| 64. | İlqar Aydın | 22 oktyabr | Gənc fəal | Abşeron Rayon Məhkəməsi | 227 | 60 |
| 65. | İbrahim İbrahimov | 25 oktyabr | AXCP | Tovuz Rayon Məhkəməsi | 535.1 | 30 |
| 66. | Zaur Rövşənli | 08 noyabr | D18 Hərəkatı | Nizami Rayon Məhkəməsi | 535.1 | 10 |
| 67. | Mirtağı Əsədov | 08 noyabr | Ümumgürcüstan Müsəlmanları Ali Dini İdarəsinin sədri | Nərimanov Rayon Məhkəməsi | 535.1; 510 | 30 |
| 68. | Ağababa Cəfərov | 19 noyabr | AXCP | Səbail Rayon Məhkəməsi | 513.2 | 20 |
| 69. | Ruslan Əmirov | 19 noyabr | AXCP | Səbail Rayon Məhkəməsi | 513.2 | 20 |
| 70. | Cavid İbrahimov | 19 noyabr | AXCP | Səbail Rayon Məhkəməsi | 513.2 | 20 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 71. | Elman Ağayev | 20 noyabr | Mühacir fəal Məhəmməd Mirzəlinin qohumu | Binəqədi Rayon Məhkəməsi | 206 | 60 |
| 72. | Ramin Abdurəhmanov | 23 noyabr | AXCP | Şəki Şəhər Məhkəməsi | 334.1 | 10 |
| 73. | Əfqan Sadıqov | 27 noyabr | Jurnalist | Səbail Rayon Məhkəməsi | 535.1 | 30 |
| 74. | Hüseyn Məlikov | 05 dekabr | ADR*(demokratiya və rifah)* Hərəkatı | Səbail Rayon Məhkəməsi | 535.1 | 25 |
| 75. | Toğrul Qocayev | 11 dekabr | Şəhid övladı | Səbail Rayon Məhkəməsi | 535.1 | 30 *(Apellyasiya Məhkəməsi cəzasını 15 günə endirib)* |
| 76. | Namiq Cəfərov | 24 dekabr | "Sovetski" sakini (evi sökülüb) | Yasamal Rayon Məhkəməsi | 535.1 | 10 |
| 77. | Bəxtiyar Rəsulov | 24 dekabr | "Sovetski" sakini (evi sökülüb) | Yasamal Rayon Məhkəməsi | 535.1 | 10 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 78. | Tofiq Cəfərov | 24 dekabr | Sovetski sakini (evi sökülüb) | Yasamal Rayon Məhkəməsi | 535.1 | 10 |

# Qısaltmalar

| | |
|---|---|
| İXM | İnzibai Xətalat Məcəlləsi |
| DSK | Dövlət Statistika Komitəsi |
| AR | Azərbaycan Respublikası |
| CM | Cinayət Məcəlləsi |
| AİHM | Avropa İnsan Haqları Məhkəməsi |
| AXCP | Azərbaycan Xalq Cəbhəsi Partiyası |
| ReAl Partiyası | Respublikaçı Alternativ Partiyası |
| MST | Müvəqqəti Saxlanma Təcridxanası |

Sənəd **Demokratik Təşəbbüslər İnstitutunun (IDI)** apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhvə verən hər kəsə dərin təşəkkürünü bildirir.

***Məlumatlardan istifadə edərkən IDI -yə istinad etmək zəruridir.***

**Əlaqə məlumatları:**

Tel: +99455 234 76 76

Web: www.idi-aze.org

E- poçt: idi.azerbaijan@gmail.com

Facebook: www.facebook.com/DTI.IDI